# ÜZEYİR BƏY HACIBƏYOV



# ARAZBARI

6560

6560

**ÜZEYİR BƏY HACIBƏYOV**

# ARAZBARI

**Partitura**

6560

**«VEKTOR» Nəşrlər Evi**
**Bakı-2006**

Tərtib edəni və ön sözün müəllifi:
**SƏADƏT QARABAĞLI**

Musiqi redaktoru:
Bəstəkar, Prof. **İSMAYIL HACIBƏYOV**

Bədii redaktoru:
Dos. Dr. **FETHİ GEDİKLİ** *(Türkiyə)*

Nəşriyyat redaktoru:
Prof. Dr. **ELÇİN İSGƏNDƏRZADƏ**

**Üzeyir bəy HACIBƏYOV «ARAZBARI» (Partitura).**
**«Vektor» Nəşrlər Evi. Bakı, 2006. 30 səh.**

***Əsərin nəşr olunmasında göstərdiyi köməyə görə Türkiyə Cümhuriyyəti Bakı Səfirliyinin Mədəniyyət və Tanıtma Müşavirliyinə dərin təşəkkürümüzü bildiririk***

Ü 4702060207-163 / 121 *(qrifli nəşr)*

**© «VEKTOR» BEYNƏLXALQ ELM MƏRKƏZİ, 2006**

**ÜZEYİR BƏY HACIBƏYOV**

Hacıbəyov (Hacıbəyli) Üzeyir bəy Əbdülhüseyn oğlu (1885-1948) Azərbaycan professional musiqi sənətinin banisi, bəstəkar, musiqişünas, alim, publisist, dramaturq, pedaqoq, tərcüməçi, dirijor və ictimai xadim. Bütün Şərqdə ilk opera və operettaların yaradıcısı, SSRİ xalq artisti (1938), Azərbaycan Milli Elmlər Akademiyasının akademiki (1945), professor (1940), Stalin mükafatları laureatı (1941, 1946), Azərbaycan Bəstəkarlar İttifaqının sədri (1938-1948), Azərbaycan Dövlət Konservatoriyasının rektoru (1928-1929; 1939-1948, Azərbaycan Milli EA-da İncəsənət İnstitutunun direktoru (1945-1948) olmuşdur.

Üzeyir bəy Hacıbəyov şair və yazıçıları, nəqqaş və rəssamları bəstəkar və ifaçıları ilə məşhur olan Qarabağ torpağında dünyaya göz açmışdır. O, 18 sentyabr 1885-ci ildə Şuşa qəzasının Ağcabədi mahalında mirzə ailəsində doğulmuşdur. Onun uşaqlıq və gənclik illəri istedadlar məskəni, musiqiçilər diyarı, Qafqazın konservatoriyası adlanan, Azərbaycanın ən gözəl guşələrindən biri olan qədim Şuşa şəhərində keçmişdir. O, ilk təhsilini mədrəsədə almış fars və ərəb dillərini mükəmməl öyrənmişdir. Sonra ikisinifli Rus-Türk məktəbində sevimli müəllimi Mirzə Mehdi Həsənzadənin köməkliyi ilə Şərqin və Qərbin tanınmış yazıçı və şairlərinin əsərləri ilə yaxından tanış olmuşdur.

Şuşanın zəngin musiqi-ifaçılıq ənənələri Ü. Hacıbəyovun musiqi tərbiyəsinə müstəsna təsir göstərmişdir. Üzeyir bəy özü yazırdı: «Mən ilk musiqi təhsilimi uşaqlıq zamanı Şuşada, ən yaxşı xanəndə və sazəndələrdən almışam. O vaxt mən muğam və təsnif oxuyardım. Səsim xanəndələrin xoşuna gələrdi. Onlar məni oxudar və öyrədərdilər...»

Üzeyir bəyin ilk musiqi müəllimi Azərbaycan xalq musiqisinin gözəl bilicisi, dayısı Ağalar bəy Əliverdibəyov olmuşdur.

Ü. Hacıbəyov ilk qələm sınağını da Şuşada keçirmişdir. Hələ 13 yaşında o, «Kitabi-məzhəkə» adlı nağıl və hekayələr kitabı yazır, illüstrasiyaları da özü çəkirdi. «Kitabi-məzhəkə» dostları arasında əldən-ələ gəzirdi.

Üzeyir bəy Hacıbəyov 13 yaşında olarkən, 1897-1898-ci illərdə Ə. Haqverdiyevin rəhbərliyi və C. Qaryağdı oğlunun ifasında Şuşada həvəskar aktyorlar tərəfindən tamaşaya qoyulmuş «Məcnun Leylinin məzarı üstündə» səhnəciyində xorda iştirak etmişdir.

1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil almışdır. Orada ümumtəhsil dərslərlə yanaşı musiqi dərsləri də keçirilirdi. Ü. Hacıbəyov seminariyada üç musiqi alətində - skripkada, violonçeldə və bariton adlanan nəfəsli alətlərdə çalmağı öyrənmişdir.

Üzeyir bəyin seminariya dostu, əməkdar müəllim Ağəli Qasımov o illəri xatırlayaraq yazırdı: «Belə bir əhvalat hələ də yadımdadır: Mən kaman (skripka) çalırdım. Pekker (musiqi müəllimi) isə səhvlərimi düzəldirdi. O, əsəbiləşib qışqırırdı. Lakin Pekkerin bütün səyləri əbəs idi. Mən düz çala bilmirdim ki, bilmirdim. Nəticədə Pekker özündən çıxdı, özünü saxlaya bilməyib yanında duran Üzeyir bəy Hacıbəyovu göstərib dedi: «Üç ildir çalırsan, yenə də düz çala bilmirsən. Hacıbəyov isə cəmi bir ildir oxuyur, buna baxmayaraq üç çalğı alətində çalmağı bacarır». Bu da təbii ki, Ü. Hacıbəyovun fitri istedadından və zəhmətkeşliyindən irəli gəlirdi. O, seminariyanın xorunda və orkestrində də müntəzəm çıxış edirdi. Onun dünyagörüşünün formalaşmasına seminariya böyük təsir göstərmişdir. Seminariyada Üzeyir bəy dünya mədəniyyəti ilə yaxından tanış olmuş, Qərbi Avropa və rus musiqi klassiklərinin əsərlərini mənimsəmiş, skripka, violonçel və baritonda çalmağı öyrənmiş, xalq mahnılarını nota köçürmüşdür.

1904-cü ildə Qori Müəllimlər Seminariyasını müvəffəqiyyətlə bitirən Ü. Hacıbəyovu Cəbrayıl qəzasının Hadrut kəndinə müəllim təyin etmişlər. Bir il orada işlədikdən sonra 1905-ci ildə Üzeyir bəy Bakıya gəlir. O, əvvəlcə Bibi-Heybət rayonuna müəllim təyin olunur, 1908-1911-ci illərdə isə «Səadət» məktəbində dərs deyir. Bu məktəblərdə Üzeyir bəy Hacıbəyov ana dilini, hesabı, coğrafiyanı, tarixi, rus dilini, musiqini tədris edirdi. Bir müəllim kimi Ü. Hacıbəyov Bakıda Orucov qardaşları mətbəəsində «Mətbuatda istifadə olunan siyasi, hüquqi,

iqtisadi və əsgəri sözlərin Türk-rus və Rus-türk lüğəti»ni (1907), Azərbaycan dilində «Hesab məsələləri» (1908) dərsliyini çap etdirmişdir. Dərslik yazmaq fikri Üzeyir bəydə Qori Müəllimlər Seminariyasında oxuyarkən oyanmışdı. Ü. Hacıbəyov «Tərəqqi» qəzetində (30 yanvar 1909-cu il) yazırdı: «...Mən seminariyanın ikinci klasında (sinfində) idim ki, ilyarımdan sonra müəllim olacaqdım. Yazı imtahanı olmaq üzrə «Mən gələcəkdə nə iş görəcəyəm» sərlövhəsi altında bir məqalə yazmağı bizə əmr etdilər. Mən yazdım ki, məktəblərimiz üçün ana dilində tədris olmqdan ötəri dərs kitabları tərtib edəcəyəm...»

Üzeyir bəy Hacıbəyov bədii yaradıcılığa publisistika ilə başlamışdır. O, «Şərqi-rus», «İttihad», «Həyat», «İrşad», «Tərəqqi», «Həqiqət», «İqbal», «Yeni İqbal», «Kaspi» və s. qəzetlərdə, «Molla Nəsrəddin» jurnalında «Ordan-burdan», «O yan, bu yan», «Dərədən-təpədən» və s. başlıqları altında, «Filankəs», «Bir kəs», «U», «Ü», «Üzeyir», «Bisavad», «Avara», «Çı» və s. (cəmi 64) gizli imzalarla, təxəllüslərlə dövrün ictimai-siyasi həyatına, maarifçilik və mədəniyyət məsələlərinə dair çoxlu məqalə, kəskin felyetonlar, satirik miniatürlər yazmışdır. Rus yazıçısı N. V. Qoqolun «Şinel» povestini Azərbaycan dilinə tərcümə etmişdir. Ümumiyyətlə, alimlərimiz Üzeyir bəyin dörd minə yaxın publisistik yazılarını aşkar etmişlər.

Üzeyir bəy Hacıbəyov yaradıcılığa publisist kimi başlasa da ona dünya şöhrəti gətirən musiqi əsərləri olmuşdur. O, özünün gözəl əsərləri ilə cahan mədəniyyətinə pəncərə açmışdır.

Şərq musiqisinin atası sayılan Üzeyir bəy Hacıbəyov 1908-ci il yanvarın 12-(25) də Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında göstərilən «Leyli və Məcnun» operası ilə təkcə Azərbaycanda deyil, bütün Şərqdə opera sənətinin əsasını qoymuşdur. Üzeyir bəy operanın librettosunu XVI əsrin böyük dühası Məhəmməd Füzulinin eyniadlı poeması əsasında yazmışdır. 1909-1915-ci illərdə bir-birinin ardınca «Şeyx Sənan» (1909), «Rüstəm və Söhrab» (1910), «Şah Abbas və Xurşidbanu» (1912), «Əsli və Kərəm» (1912)», «Harun və Leyla» (1915) kimi milli operalarını yazmışdır. Bu operaların librettosunu Ü. Hacıbəyov xalq dastanları və rəvayətləri, eləcə də Firdovsinin «Şahnamə» əsərinin motivləri əsasında yazmışdır.

Üzeyir bəy Hacıbəyovun dramaturgiya sahəsindəki fəaliyyəti Azərbaycan ədəbiyyatında mühüm əhəmiyyət kəsb edir. O, həmçinin bütün Şərqdə operetta janrının yaradıcısıdır. «Ər və arvad» (1909), «O olmasın, bu olsun» (1910), «Arşın mal alan» (1913) operettalarının musiqisi ilə bərabər librettolarını da Üzeyir bəy özü yazmışdır. Hər üç əsər, xüsusilə «Arşın mal alan» operettası ilə dahi bəstəkar bənzərsiz məktəb yaratmışdır.

Ü. Hacıbəyov 1912-ci ildə ali təhsil almaq üçün əvvəlcə Moskvaya getmiş, filarmonik cəmiyyətin musiqi kurslarında (solfecio üzrə N. M. Laduxindən, harmoniya üzrə N. N. Sokolovskidən) dərs almışdır. 1913-cü əldə isə Sankt-Peterburq Konservatoriyasında oxumuşdur (konservtoriyada harmoniya üzrə müəllimi N. A. Rimski-Korsakovun tələbəsi V. P. Kalafati idi. Fortepiano və orqan üzrə dərsləri görkəmli müəllimlər V. V. Şerbaçov və Y. Y. Qandşin aparırdı). Üzeyir bəyin həyatında və yaradıcılığında Sankt-Peterburq dövrü mühüm rol oynamışdır. «Arşın mal alan» oprettasını məhz orada yazmışdır. I Dünya müharibəsinin başlanması üzündən Ü. Hacıbəyov Sankt-Peterburqda təhsilini tamamlamamış, 1914-cü ildə Bakıya qayıtmışdır.

1918-ci il Azərbaycan xalqı üçün çox ağır başlamışdır. Ermənilər indiki kimi yenə də sakit oturmurdular. Elə həmin ilin mart ayında ermənilər Azərbaycan xalqına qarşı soyqırıma başladılar. Bakının küçələrində qan su yerinə axırdı. Belə bir dövrdə, qanlı mart hadisələri zamanı Azərbaycana rəhbərlik edən böyük ictimai və dövlət xadimi N. Nərimanov Üzeyir bəy Hacıbəyovu yanına çağırır, ona «Hacıbəyov qardaşlarının teatr truppası» ilə İrana qastrola getməyi məsləhət görür. Üzeyir bəy etiraz edir xalqı ilə bahəm qalmaq istəyini bildirir. Lakin N. Nərimanov təkidlə Ü. Hacıbəyovu qastrola getməyə məcbur edir və ona deyir ki, biz səni qorumalıyıq. Sən millətimizin gələcəyi üçün lazımsan. Bu söhbətdən sonra Üzeyir bəy Hacıbəyov İrana getməyə məcbur olur. 1918-ci ilin mart ayında teatr ilə qastrola getmiş Üzeyir



bəy, 1918-ci ilin 23 oktyabrında Bakıya qayıtmış, elə həmin il, oktyabr ayının 29-da «Azərbaycan» qəzetində ilk məqaləsi dərc olunmuşdur.

Üzeyir bəy Hacıbəyov 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının hakimiyyəti dövründə «Azərbaycan» qəzetində fəaliyyət göstərmişdir. Hər gün, bəzən də günaşırı qəzetdə məqalələrlə çıxış edirdi. Qəzetin redaktoru Üzeyir bəyin kiçik qardaşı Ceyhun bəy Hacıbəyli idi. 1919-cu ilin yanvarından 1920-ci ilin 27 aprelinə qədər Ü. Hacıbəyov «Azərbaycan» qəzetinin müdiri olmuşdur. Bu qəzetdə çoxlu məqalələr dərc etdirmiş, uzaqgörən siyasətçi, ideyalı publisist, qorxmaz jurnalist kimi şöhrət qazanmışdır.

20-ci illər Azərbaycan incəsənətinə «təşkilatçılıq» illəri kimi daxil olmuş və bunun da başında Üzeyir bəy durmuşdur. O, Azərbaycan musiqisinin gələcək inkişaf proqramını müəyyənləşdirmiş, peşəkar musiqi kadrları yetişdirmək barədə düşünmüşdür. 1921-ci ildə Bakıda ilk musiqi məktəbini (Azərbaycan Dövlət Türk Musiqi məktəbi) yaratmış, sonradan bu məktəb musiqi texnikumuna çevrilmişdir (texnikumun ilk direktoru Ü. Hacıbəyov olmuşdur). 1926-cı ildə texnikum Azərbaycan Dövlət Koservatoriyası ilə birləşmişdir. 1926-cı ildən ADK-da fəaliyyət göstərən Üzeyir bəy Hacıbəyov burada nəzəriyyə, harmoniya, Azərbaycan musiqisinin əsasları fənlərindən dərs demiş, konservatoriyanın nəzdində Azərbaycan xor kollektivi yaratmışdır. Lakin bu xor dağılmış, 1936-cı ildə Üzeyir bəyin təşəbbüsü ilə Azərbaycan Dövlət Filarmoniyasında yenidən Dövlət xoru təşkil olunmuşdur. Ü. Hacıbəyov fasilələrlə, ömrünün sonuna kimi Azərbaycan Dövlət Konservatoriyasına (1928-1929, 1939-1948) rəhbərlik etmişdir.

Üzeyir bəy Hacıbəyov bəstəkar M. Maqomayevlə birgə 1927-ci ildə ilk «Azərbaycan türk el nəğmələri» məcmuəsi nəşr etdirmişdir. Orkestrin repertuarına M. Qlinka, V. Motsart, F. Şubert, J. Bize və başqa bəstəkarların əsərləri ilə yanaşı, Üzeyir bəyin bu orkestr üçün 1931-1932-ci illərdə yazdığı 1-ci və 2-ci fantaziyaları daxil idi. Orkestrə ilk vaxtlar Üzeyir bəy Hacıbəyov özü dirijorluq etmişdir. Ü. Hacıbəyov kamera-instrumental, mahnı, marş, kantata, romans, balet və s. janrlarda da əsərlər yazmışdır. 1938-ci ildə isə Azərbaycan Dövlət Simfonik Orkestrini yaratmışdır.

30 aprel 1937-ci ildə Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş «Koroğlu» operasının librettosunu H. İsmayılov və M. S. Ordubadi yazmışlar. Bu əsərdə Ü. Hacıbəyov Avropa operalarından faydalanaraq, milli özül üzərində özünün gözəl Şərq operasını bəstələmişdir. Burada o böyük ustalıqla qərb musiqi alətləri ilə şərq musiqi alətlərinin sintezini yaratmış, klassik opera formasına riayət edərək, bitkin ariyalar, kütləvi xor səhnələri, ansambllar, balet nömrələri, reçitativlər yazmışdır.

«Koroğlu xalq qəhrəmanı olmaqla yanaşı, həm də aşıqdır. Buna görə də opera əsas etibarı ilə aşıq musiqisi üslubunda bəstələnmişdir. «Koroğlu operası 1938-ci ildə Moskvada müvəffəqiyyətlə keçən Azərbaycan incəsənəti ongünlüyündə göstərilmiş və ən gözəl opera adına layiq görülmüşdür. Opera Stalin mükafatı ilə təltif olunmuşdur (1941).

İkinci Cahan müharibəsi (1941-1945) illərində Üzeyir bəy Hacıbəyov ordumuzu, xalqımızı qələbəyə ruhlandırmaq üçün dalbadal gözəl əsərlər yazmışdır. «Çağırış», «Yaxşı yol», «Ananın oğluna nəsihəti», «Şəfqət bacısı», «Döyüşçülər marşı», və s mahnılar, «Cəngi» (1941) pyesini, «Vətən və cəbhə» (1942) kantatasını bəstələmişdir. Bu illərdə yaratdığı əsərlərdən Nizami Gəncəvinin anadan olmasının 800 illiyinə həsr etdiyi «Sənsiz» (1942) və «Sevgili canan» (1943) romansları xüsusi yer tutur (romanslar Nizaminin qəzəlləri əsasında yazılmışdır). Üzeyir bəy Hacıbəyov həyatının son illərində «Firuzə» adlı opera üzərində işləmişdir. Yarımçıq qalmış, tamamlanmamış bu operadan yalnız Firuzənin ariyası qalmışdır. Üzeyir bəy həm də Azərbaycan Respublikasının Dövlət Himnlərinin (1945, 1992) musiqisinin müəllifidir.

Üzeyir bəy Hacıbəyov yaratdığı əsərlərdə Şərq və Qərb musiqi sistemlərinin vəhdətini yaratmış, bir zamanlar Şərq və Qərb musiqi mədəniyyəti arasında keçilməz sayılan manеəni aradan götürmüş, Şərq musiqisinin inkişafının prinsiplərini müəyyələşdirmişdir. O, bütün musiqi

janrlarında Üzeyir bəy üslubunu yaratmışdır. Azərbaycan musiqisinin, yeni nailiyyətlər əldə edərək, beynəlmiləl səviyyəyə qalxmasında Üzeyir bəyin böyük rolu vardır.

Üzeyir bəy Hacıbəyov həm də böyük musiqişünas alim idi. o, Azərbaycanda musiqişünaslıq elminin əsasını qoymuşdur. Bu sahədə «Azərbaycan xalq musiqisinin əsasları» adlı fundamental elmi əsər yaratmış, çoxlu məqalələr yazmışdır. «Azərbaycan xalq musiqisinin əsasları» adlı tədqiqat əsəri üzərində Üzeyir bəy 20 il (1925-1945) işləmişdir.

Müəllif bu əsərdə Milli musiqinin - muğamların, xalq mahnılarının dərin təhlilini verərək, Azərbaycan ladlarının, ümumilikdə milli musiqinin xüsusiyyətlərini, qanunauyğunluqlarını açmışdır. Azərbaycan xalq musiqisinin əsaslarına aid bu əsər bugün bütün bəstəkarların, nəzəriyyəçilərin, musiqişünasların masaüstü kitabıdır, Azərbaycan musiqi incəsənətini daha da inkişaf etdirmək üçün bünövrədir. Bu kitab haqqında məşhur rus bəstəkarı R. M. Qlier 1945-ci ilin avqustunda Moskvadan Üzeyir bəyə göndərdiyi məktubda yazırdı: «Əziz və hörmətli Üzeyir bəy, «Azərbaycan xalq musiqisinin əsasları» əsərinizi aldım, səmimi təşəkkürümü bildirirəm. Əminəm ki, əsəriniz Azərbaycan musiqi sənətinin, deməli, bütün Sovet və dünya musiqi sənətinin inkişaf etdirilməsində müstəsna əhəmiyyətə malik olacaqdır. Bu gözəl kitabın meydana gəlməsi münasibətilə Sizi və gənc Azərbaycan bəstəkarlarını səmimi təbrik edirəm.

Sizə qəlbən sadiq qalan Qlier».

Dünya şöhrətli kristalloqraf-alim, akademik Xudu Məmmədov bu əsər haqqında belə demişdir: ««Azərbaycan xalq musiqisinin əsasları» böyük bir dəryadır. Bu qiymətli, fundamental əsər təkcə Azərbaycan xalq musiqisinin deyil, eyni zamanda bütün elmlərin əsasıdır». Bu əsər Azərbaycan, rus və ingilis dillərində nəşr olunmuşdur.

Ü. Hacıbəyov istedadlı bəstəkarlar, musiqişünaslar nəsli yetişdirmişdir. Q. Qarayev, F. Əmirov, Niyazi, S. Hacıbəyov və b. Üzeyir bəyin tələbələri olmuşlar.

Üzeyir bəy Hacıbəyovun milli və beynəlmiləl musiqisi ümumcahan şöhrəti qazanmış, dünya musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, Ü. Hacıbəyovun «Arşın mal alan» operettası ingilis, alman, fransız, Çin, ərəb, fars, polyak, rus, Ukrayna, belarus, gürcü və s. ümumiyyətlə dünya xalqlarının 67 dilinə tərcümə edilməş, 100-dən çox səhnələrdə, o cümlədən ABŞ-ın 13 ştatında, Polşanın 16 şəhərində, Çinin 3 şəhərində, Türkiyədə, İranda, Yunanıstanda, Parisdə, Londonda. Berlində, Sofiyada, Moskvada və b. yerlərdə tamaşaya qoyulmuş, dörd dəfə isə ekranlaşdırılmışdır. «O olmasın, bu olsun» operettası Zaqafqaziyada, Dağıstanda, Orta Asiyada - Türkistanda, Türkiyədə, İranda, Yəməndə, Bolqarıstanda və s. oynanılmışdır.

Üzeyir bəyin yaradıcılığının zirvəsini təşkil edən «Koroğlu» operası Aşqabadda (1939, türkmən dilində). Yerevanda (1942, erməni dilində), Daşkənddə (1950, özbək dilində) səhnəyə qoyulmuşdur.

Üzeyir bəy Hacıbəyovun əsərləri dəfələrlə ekran həyatı yaşamışdır. «Arşın mal alan» operettasına 1917 (rej. B. Svetlov), 1945 (rej. R. Təhmasib, N. Leşşenko), 1966 (rej. T. Tağızadə) illərdə Bakıda, 30-cu illərdə isə ABŞ-da film çəkilmişdir. 1945-ci ildə Bakıda çəkilmiş filmin bir qrup yaradıcı heyətinin üzvləri, başda Üzeyir bəy Hacıbəyov olmaqla Stalin mükafatına (1946) layiq görülmüşlər. «O olmasın, bu olsun» operettası isə 1956-cı ildə Bakıda (rej. H. Seyidzadə) ekranlaşdırılmışdır.

Üzeyir bəy Hacıbəyov həyatı boyu ictimai xadim kimi də yorulmadan çalışmışdır. O, ilk çağırışlardan (1-ci çağırış 1937, 2-ci çağırış 1946) ömrünün sonuna kimi SSRİ Ali Sovetinin deputatı olmuşdur. 1938-ci ildə Moskvada keçirilən dirijorların birinci Ümumittifaq müsabiqəsinin münsiflər heyətinin üzvü, 1939-cu ilin oktyabrında isə yenə də Moskvada keçirilən SSRİ xalqlarının milli musiqi alətləri ifaçılarının Ümumittifaq müsabiqəsinin münsiflər heyətinin sədri olmuşdur. 1945-ci ildə Bakıda Azərbaycan Elmlər Akademiyası yaradılmış, elə həmin ildən də Üzeyir bəy Akademiyaya həqiqi üzv seçilmişdir. 1945-ci ildə Azərbaycan EA-da Ü. Hacıbəyov İncəsənət İnstitutu təşkil etmiş, İnstituta rəhbərlik isə elə onun özünə həvalə edilmişdir. Azərbaycan Respublikasının Ali Sovetinin Rəyasət heyətinin fərmanı ilə 1945-ci ildə



İncəsənət İnstitutuna, 1944-cü ildə də özünün yaratdığı Azərbaycan Dövlət Simfonik orkestrinə Üzeyir bəy Hacıbəyovun adı verilmişdir. O, bir çox orden və medallarla təltif olunmuşdur. 1945-ci ildə Ü. Hacıbəyovun anadan olmasının 60 illiyi böyük təntənə ilə Dövlət səviyyəsində keçirilmişdir.

1948-ci ilin 23 noyabrı xalqımız üçün çox ağır bir tarix olmuşdur. Həmin gün dahi bəstəkar xalqının sevimli, əziz oğlu Üzeyir bəy Hacıbəyov dünyasını dəyişmişdir. Lakin Üzeyir bəy ölməzdir. Onun adı və bir-birindən gözəl əsərləri bu gün də yaşayır və nə qədər həyat var, o da daim parlaq günəş kimi işıq saçacaqdır.

Hazırda Ü. Hacıbəyovun adı 40-dan çox obyektdə əbədiləşmişdir. Azərbaycan Dövlət Konservatoriyasına (1949) və Azərbaycan Dövlət Simfonik orkestrinə (1944), eləcə də musiqi məktəblərinə, musiqi texnikumlarına, ümumtəhsil məktəblərinə, küçələrə, mədəniyyət və istirahət parklarına, klublara, gəmiyə və s. obyektlərə Üzeyir bəy Hacıbəyovun adı verilmişdir. 1965-ci ildə Azərbaycanda Üzeyir bəy Hacıbəyov adına Dövlət mükafatı təsis edilmişdir. Şuşada (1959) və Bakıda (1975) Üzeyir bəy Hacıbəyovun ev muzeyləri açılmışdır. Bakıda (1960; tunc, qranit, heykəltəraş Tokay Məmmədov) və Şuşada (1985. tunc, qranit, heykəltəraş Əhməd Salikov) heykəlləri ucaldılmışdır. Fəxri xiyabandakı qəbirüstü abidəsi isə 1956-cı ildə (tunc, qranit, heykəltəraş Ömər Eldarov) ucaldılmışdır. F. Əmirov skripkalar, violonçel və iki fortepiano üçün «Üzeyir Hacıbəyova ithaf» (1949) poemasını yazmışdır. «Azərbaycanfilm» kinostudiyasında 2 seriyalı «Uzun ömrün akkordları» («Üzeyir ömrü») (1982; ssenari müəllifi və quruluşçu rej. Anar) rəngli bədii televiziya filmi çəkilmişdir.

1983, 1985, 2005-ci illərdə Üzeyir bəy Hacıbəyovun musiqi əsərlərinin akademik nəşrinin 1-5 cildləri («Leyli və Məcnun» operasının partiturası və klaviri, «Koroğlu» operasının 1-5-ci pərdələrinin partiturası) çap olunmuşdur.

Üzeyir bəy Hacıbəyovun anadan olmasının 80,90, 100, 110 illik yubileyləri böyük təntənə ilə keçirilmiş, dünyanın bir sıra şəhərlərində yubiley gecələri təşkil olunmuşdur. YUNESKO-nun qərarı ilə Ü. Hacıbəyovun 100 illik yubileyi beynəlxalq miqyasda qeyd edilmişdir.

2005-ci ildə isə böyük türk dünyasının fəxri olan dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəyovun anadan olmasının 120 illiyi tamam olmuşdur. Bununla bağlı Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev 2005-ci il fevral ayının 28-də xüsusi sərəncam imzalamışdır.

Dünyaşöhrətli dahi bəstəkarın çox sevilən «Arazbarı» (1908) əsərinin nəşri də bu yubileyə töhfədir.

**SƏADƏT QARABAĞLI,**
*Üzeyirşünas, «Nurlu qələm ustası» mükafatı laureatı.*

## UZEIR HACIBEYOV
(1885-1948)

Uzeir Hacibeyov was born in the Karabakh, a land known for its poets and writers, artists and singers. He was born on 18th of September 1885 in settlement Ağcabedi of province Shusha in the family of a scientist. His childhood and youthful have passed in the native land of talents, in the world of the musicians, known as the Conservatory of Caucasus, in one of the most beautiful part of Azerbaijan, in the city of Shusha. He began to study at school of clergy and in perfection where he had mastered Persian and Arabic. And then got closely acquainted with products of famous writers and poets of the East and the West with the assistance of favorite teacher Mirza Mehdi Hasanzade at two-class Russian-Turkish school. Rich musical-singing traditions of Shusha have well affected to Uzeir's musical abilities.

Uzeir Bey wrote: "I have received the first music education in my childhood from the best singers and musicians. Then I sang *mugams* and *tesnifs*. My voice is liked very much by singers. They used to ask me to sing and learned me to sing.

Uzeir's first teacher was his uncle, the big expert on the Azerbaijan folk music, Agalar bey Aliverdibekov.

His first tests in literature he did in Shusha. Being in his 13, he wrote the book of stories and fairy tales under the name "Kitabi-mezheke" [Book of Comedies], and he himself worked above illustrations for the book. This book was being re-read by his friends. When Uzeir Bey Hacibeyov was 13, in 1897-1898, he acted in chorus in Shusha, in a small performance "Mednun at tomb of Leyli" put by E. Hakverdiev and by an amateur group of actors and Cabbar Karyagdi oglu.

In 1899-1904, he studied in Seminary of Teachers in Ghori in Georgia. Alongside with general educational subjects there were also studied lessons of music. In seminary, U. Hacibeyov learned to play on a violin, on violoncello and on a baritone.

His friend from the seminary, an honored teacher Agaali Kasimov wrote about those years: "I still remember such a story: I was playing on a violin and Pekker (the teacher of music) was correcting my mistakes. He was nervous and was shouting. But all his efforts were vain. I could not play in any way correctly. Eventually Pekker became angry, and couldn't restrain, told showing nearly standing Uzeir Bey Hacibeyov: 'Three years as you play and you can not learn to play in any way. But Hacibeyov is doing it only a year, and he is able to play on three musical instruments'."

Certainly all this was connected to congenital talent and diligence of Uzeir Bey Hacibeyov. In seminary he constantly acted both in chorus and in an orchestra. The seminary has played the big role in his world view. He got acquainted with world art closer, studied world compositions and Russian musical classics, learned to play on a violin, on violoncello and on a baritone, transferred on notes folk songs.

In 1904, having finished the Seminary of Teachers he was appointed by the teacher in village Hadrut of province Cebrail. Having worked a year, in 1905, Uzeir Bey moved to Baku. First he was appointed as a teacher in area Bibi-Heybet, and between 1908-1911, he teaches also at School of "Seadet". At these schools, Uzeir Bey taught the native language, mathematics, geography, history, Russian and music. On a printing house of brothers of Orucovs, he issued Turkish-Russian and Russian-Turkish dictionary of political, legal, economic and military words used in the press" (1907), and the textbook "Mathematical drills" (1908) in Azerbaijan Turkish. The idea of writing a textbook appeared on his mind during his study at the Seminary.

U. Hacibeyov wrote in the newspaper "Tereqqi" (30th January, 1909): "No sooner had I been the pupil of the second class when I was going to become a teacher after one and a half year. We were ordered to write an article on a theme 'That I shall make in future'. I wrote that I should compose textbooks on the native language..."

U. Hacibeyov began the activity by publicism. He wrote under secret signatures and pseudonyms (totally 64) such as "Filankes", "Bir kes", "U", "Ü","Üzeir", "Bisavad", "Avara", "Çı" and etc., in newspapers such as "Shergi-Rus", "Ittihad", "Heyat", "Irshad", "Tereqqi", "Heqiqet", "Iqbal", "Yeni Iqbal", "Kaspi". And in the journal of "Molla Nesreddin" he also wrote many articles, satirical miniatures on sociopolitical, educational and cultural themes of time, under the title "Ordan-burdan", "O yan, bu yan", "Dereden-tepeden". He has translated into the Azerbaijan



language N. V. Gogol's story "Shinel" (The Capote). In general, our scientists have found out nearly four thousand his publicistic works.

Notwithstanding that Uzeir Hacibeyov began his activity by publicism, the world glory have been brought him by pieces of his music. He has opened a window in the world of culture by his fine works.

Being counted as the father of Eastern music Uzeir Hacibeyov in 1908, in Baku, has staged an opera "Leyli and Mednun" and by this opera he has put a basis of Opera Art not only in Azerbaijan, but also in all the East. The libretto of this opera has been written on the same poem of the great genius of XVI century Mohammed Fizuli. In 1905-1915 he has written one after another such national operas, as "Sheikh Sanan" (1909), "Rustam and Zohrab" (1910), "Shah Abbas and Xurshidbanu" (1912), "Asli and Kerem" (1912), "Harun and Leyla" (1915). The libretto of these operas were written on motives of national legends and histories, and also on motives of work by Firdovsi "Shahname".

Activity of Uzeir Hacibeyov in the field of dramatic art is of great importance in the Azerbaijan literature. He is the founder of a genre of an operetta in all the East. He has written music and the libretto on operettas "The Husband and The Wife" (1909), "O olmasın, bu olsun [Not that so this]" (1910), "Arshin mal alan "(1913).

In 1912, Uzeir Hacibeyov has left for Moscow to receive higher education on musical courses of a philharmonic society (on solfeggio from N. M. Laduhin, on harmony from N. N. Sokolovsky). And in 1913 he studied in Sankt- Petersburg Conservatory, (in the Conservatory the teacher on harmony was the pupil of Roman Korsakov V. P. Kalafati). Lessons on a piano and on organ were conducted by outstanding teachers V. V. Sherbachov and J. J. Gandshin.

Sankt-Petersburg period has played the important role in his life and activity. He has written "Arshin mal alan" there. Because of beginning the First World War, Uzeir Hacibeyov could not finish his study in Sankt-Petersburg and in 1914, he has returned to Baku.

Very hardly it began the1918th for Azerbaijan people. Armenians and whereas and now did not sit quietly. In March of the same year, Armenians have started genocide against the Azerbaijan people. In streets Baku blood spilled instead of water. At this period during March bloody events the head of Azerbaijan, great public and statesman N. Narimanov invites him to himself and also suggests him to leave for Iran on performances together with "Theatrical Troupe of Hacibeyov's Brothers". Uzeir Bey refuses and expresses a desire to remain with his people. But N. Narimanov persistently insists on performances and says, that they should protect him. Narimanov says that "You are a necessary person for the future of our nation". After that conversation Uzeir Hacibeyov has been compelled to leave for Iran. Having left with troupe of theatre to Iran in March of 1918, Uzeir Bey comes back to Baku on October 23rd, 1918, and at the same year on October, 29 he publishes his first article in the newspaper "Azerbaijan". In 1918-1920, during authority of the Azerbaijan Democratic Republic he worked in the newspaper "Azerbaijan". Every day, sometimes every other day he issued articles in that newspaper. The editor of the newspaper was Uzeir Bey's younger brother Ceyhun bey Hacibeyov. From January of 1919 till the 27th of 1920, Hacibeyov was a director of this newspaper. Having published a lot of articles in this newspaper, he is known as the further looking politics, the purposeful publicist and the brave journalist.

The 20th years have come in Azerbaijan music as "organisatoric" years and Uzeir Bey stood at the head of it. He has determined the program of the future development of the Azerbaijan music and thought of creation of the professional musical staff. In 1921, he has created the first musical school in Baku which named the Azerbaijan State Turkish school, and further this school was turned into a musical technical school. Its first principal was Hacibeyov himself. In 1926, the technical school incorporates with the Azerbaijan State Conservatory.

Having started to work in the Conservatory from 1926, Uzeir Bey taught such subjects as the theory, harmony, bases of the Azerbaijan music and founded a choral collective within the Conservatory. But that chorus was closed and in 1936, by the assistance of Hacibeyov the state chorus has been created again within the State Philarmony in the Azerbaijan.

Up to the end of his life, of and on, Hacibeyov lead the Conservatory. (1928-1929, 1939-1948).

In 1927, Hacibeyov has published the first review on "Azerbaijan Turkish folk songs" together with composer M. Magomayev. In repertoire of an orchestra alongside with M. Glinki's,

W. Mozart, F. Schubert, Z. Bize and the others works there were included the first and second fantasies composed by Uzeir Bey in 1931-1932 for this orchestra. In the beginning, the orchestra conducted by Hacibeyov himself. He also composed chamber-instrumental works, songs, marches, cantatas, romances, ballets and also works in other genres. In 1938, Uzeir Bey creates the Azerbaijan State Symphonic Orchestra.

On April, 30, 1938, it has been put the opera "Koroglu" on a stage of Theatre of the Opera and Ballet. Authors of the libretto were H. Ismailov and M. S. Ordubadi. In this composition, Hacibeyov using the European operas and depending on the national music has written a perfect Eastern opera. Here Uzeir Bey has created synthesis of musical instruments of the West and the East with the great skill adhering to the classical opera form and has written complete arias, mass choral stages, ensembles, ballet numbers, recitatives.

"Koroglu" the national hero, but at the same time he is an *aşig*. And consequently the opera has been created on a basis o *aşiq*'s music. The "Koroglu" operası was been shown in Moscow in 1938, where Azerbaijan days were conducted and it was awarded with a name of the finest opera. The opera has been awarded with the Stalin premium (1941).

During the Second World War (1941-45), Hacibeyov composed songs inspiring people and army on a successive victory. He has composed songs "Call", "Yahşı Yol", "Admonition of a mother", "The Nurse", "The Soldier's march", etc. He composed also a play «Djangi» (1941), a cantata "The Native land and Front" (1942). These years the special place is borrowed with the romances devoted to 800th anniversary by Nizami Gencevi "Sensiz" [Without you] (1942) and "Sevgili Canan" [Favourite] (1943). Theese romances have been written on the basis of gazelles by Nizami.

Uzeir Bey is the composer, the musician, the scientist, the publicist, the playwright, the teacher, the translator, the conductor and the public figure. He was a founder of first operas and operettas in all the East, the National actor of the USSR (1938), the academician of the Azerbaijan National Academy of Sciences (1945), the professor (1940), the winner of the Stalin premium (1941,1946), chairman of the Union of Composers (1938-1948), the rector of the Azerbaijan State Conservatory (1928-1929; 1939-1948), director of Institute of Art within Azerbaijan National Academy of Sciences (1945-1948).

During his last years, he worked on an opera but he had no opportunity to finish it. "Firuza". Now, we have only a part of it called "from the aria of Firuza". Uzeir Hacibeyov also is the compositor of music of national anthems of the Azerbaijan Republic.

Uzeir Hacibeyov has created the union of Eastern and Western musical systems, has passed an insuperable barrier between Eastern and Western culture, has defined principles of development of Eastern music. He has created Uzeir style in all genres of music. It has played a greater role in that the Azerbaijan music has risen up to the international level.

Uzeir Hacibeyov was also an outstanding scientist. He has proved a science of musicology in Azerbaijan. In this area, he has created a fundamental scientific work under the name "Bases of the Azerbaijan folk music" which he worked 20 years on it, and he also has written many articles.

In this work, the author gives a wide explanation of national songs, *mugams*, and opens qualities, interrelations of national music of Azerbaijan. This product is the reference book of all composers, theorists, the musicologist, and it is a basis for development of Azerbaijan musical culture. A well-known Russian composer, R. M. Glier, wrote to Uzeir Bey a letter on August, 1945: "Dear and dear Uzeir Bek, I have received your book called 'Bases of the Azerbaijan folk music'. I express sincere gratitude. It is assured that your product will play an exclusive role in development of the Azerbaijan music, so also all Soviet, also world music. Sincerely I congratulate you and all young Azerbaijan composers in communication by birth of this book. Sincerely yours Glier."

The world famous scientist, crystallograph, academician Hudu Memmedov has told about this book, which published in Azerbaijan, Russian and English languages, the followings: "*Bases of Azerbaijan Folk Music* is a bottomless sea. This is a fundamental product, a basis not only of Azerbaijan music, but also a basis of all sciences.

Uzeir Bey has grown up many talented composers, musicologists. K. Karaev, F. Amirov, Niyazi, S. Hacibeyov, etc. were his pupils.

The music of Uzeir Bey has got the world popularity and has entered into gold fund of musical culture. It is enough to note only that his operetta "Arshin mal alan" is translated into more



than 67 languages of the world such as English, German, French, Chinese, Arabic, Persian, Polish, Russian, Ukrainian, Belarusian, Georgian, etc. It has been dramatized in many stages, including 13 states of USA, 16 cities of Poland, 3 cities of China. It has been performanced also in Turkey, Iran, Greece, France, Britain, Germany, Bulgaria, Russia and the other countries. And it has been picturized four times. The operetta "O olmasın, bu olsun" has been put on a stage in Transcaucasia, Dagestan, the Middle Asia – Turkistan countries, Turkey, Iran, Yemen and Bulgaria. The opera «Koroglu» is a peak of activity of Uzeir Bey. It has been put in Ashkabad (1942, in Turkmen language), in Yerevan (1942, in the Armenian language), in Tashkent (in the Uzbek language).

Films were repeatedly removed on works of Uzeir Bey. On motives of the operetta "Arshin mal alan" are made films in 1917 (director B. Svetlov), 1945 (director R. Tahmasib, N. Leshchenko), 1966 (director T. Tagizade) in Baku, and in the 1930es in the USA. The art producers of the film made in Baku in 1945 have been awarded by the Stalin premium. Uzeir Bey also was amongst them. And an operetta "O olmasın, bu olsun" has been picturized in 1956 in Baku (director. H. Seyidzade).

Uzeir Bey also worked indefatigably all his life as a public figure. From the first appeals (first appeal was in 1937, the second was in 1946) and up to the end of his life, Uzeir Bey was the deputy of the Supreme Body of the USSR, and the judge of All-Union competition of conductors which passed in Moscow in 1938. He was the chairman of jury of All-Union competition of executors of national musical instruments in Moscow in October 1939.

In 1945, the Academy of Sciences of Azerbaijan has been created in Baku and since the same year Uzeir Bey has been chosen by the full member of it. In 1945, he organizes Institute of Arts. And to lead the Institute also is entrusted to him. In the same year, under the decision of Supreme Body of Azerbaijan Republic, the Institute of Arts and one year ago the Azerbaijan State Symphonic Orchestra which was created by him has been named by his name. Uzeir Bey has been awarded many awards and medals. In 1945, on occasion of his 60 years anniversary he has been solemnly noted at the State level.

The 23rd of November, 1948, was a very heavy date for Azerbaijan people. This day the favourite and dear son of people was died. But he is immortal. His name and his wonderful work both live today. And how many there is a world, Uzeir Bey will brightly shine as the sun.

Now his name is immortalized in many objects. By his name there are named Azerbaijan State Conservatory (1949) and Azerbaijan State Symphonic Orchestra (1944), also musical schools, muses, technical schools, secondary schools, streets, parks of culture, parks of rest, clubs, steamships, etc. In 1965, the State premium named Uzeir Hacıbeyov has been founded. There have been founded house-museums in Shusha (1959) and in Baku (1975). There have been constructed monuments in Baku (1960, bronze, a granite, sculptor Tokay Memmedov) and in Shusha (1985, bronze, a granite, sculptor Ahmed Salikov). And the monument on a tomb on "Fahri Hiyaban" [Honourable Avenue] has been put in 1956 (bronze, a granite, the sculptor Omar Eldarov). Fikret Amirov who is also a great compositor has written the poem devoted to him called "Uzeir Hacibeyova ithaf" (1949). In the studios of "Azerbaijanfilm", it has been made known a film in two-part "Chords of a long life" in 1982. The author of the script and director is Anar.

From 1983 on, it has been published 1-5 volumes of the academic publication of pieces of music of U. Hacibeyov (the partita and klavir of the opera "Leyli and Medjnun", the partita of 1-5 stages of the "Koroglu" opera.

His 80th, 90th, 100th and 110th anniversaries have been lead solemnly in many countries of the world. Under the decision of UNESCO, the 100th anniversary of Uzeir Hacibeyov was marked on a global scale. Now, in 2005, the 120th annivesary of the great son of the great Turkic world, of the ingenious Azerbaijan composer has been celebrated. On this occasion the prezident of the Azerbaijan Republic, Ilham Aliev, has signed a special decree on February, 28th, 2005.

And the new edition of a very chosen «Arazbari» of the well-known composer is also a gift by an anniversary.

**SEADET QARABAĞLI**

*A specialist on Uzeir Hacibeyov and the laureat of 'Nurlu Qelem Ustası'*

# ARAZBARI

Üzeyir Hacıbəyov
Uzeir Hajibeyov
(1885-1948)









13
tr.♭
pizz.
arco



2
17
mf
f
tr.♭
arco







6560





NOT-MUSIQI
SÖB[illegible]


31
4
a2
ff
tr.
(pizz.)
arco
f




36
5
a2
f


41
a2
div.
unis.
pizz.
arco
f




47
6
7
pizz.
arco
mf
p


53
f
unis.




59
8
mf
(pizz.)
arco
div.
unis.


65
9
tr.
I
III
p
pizz.
arco




72
10
p
mf
arco
pizz.
div.


79
tr.
f
arco
unis.




85
11
tr.
mf
(pizz.)
arco
div.
unis.






# ÜZEYİR BƏY HACIBƏYOV

## "ARAZBARI"

**Partitura**

**«VEKTOR» NƏŞRLƏR EVİ**
**BAKI-2006**

| | |
|---|---|
| Redaktor: | **ELÇİN İSGƏNDƏRZADƏ** |
| Mətbəənin direktoru: | **Rafiq ƏSGƏRLİ** |
| Bilgisayar dizayneri: | **Aydan ELÇİN** |
| Texniki redaktor: | **Azad ƏSGƏRLİ** |
| Korrektor: | **Afaq CABBARQIZI** |
| Bilgisayar yığımı: | **Günəş İSMAYLOVA** |

| | |
|---|---|
| Yığılmağa verilmiş: | 25.12. 2005 |
| Çapa imzalanmış: | 02.02. 2006 |
| Kağız formatı: | 60x84 1/8 |
| Fiziki çap vərəqi: | 4 |
| Sifariş: | 163 |

«VEKTOR» BEYNƏLXALQ ELM MƏRKƏZİ
«VEKTOR» NƏŞRLƏR EVİ
Ünvan: AZ1018. Bakı şəh, Əhmədli qəs, Zığ yolu, 20 q
tel: (+99412) 4471404
faks: (+99412) 4729234
e-mail: isgenderzadeh@rambler.ru
www.vektor.az

NOT-MUSIQI
SÖBƏSI